# Müasir dövrün «Kefli İsgəndər»i

*Bildiyimiz kimi, Cəlil Məmmədquluzadə XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realizmin ən böyük nümayəndəsi olmuşdur. Onun əsərlərində tənqidi realizm üslubu əsas yer tuturdu. O, ədəbiyyatımıza xalq gülüşü və yumorunu gətirmişdir.*

Dahi Cəlil Məmmədquluzadənin yaradıcılığını bir dənizə bənzətmək olar. Dəniz təmizliyi, genişliyi sevdiyi kimi və təmizliyinə ləkə ola biləcək bütün zir-zibili sahilə tulladığı kimi, Mirzə Cəlil də əsərlərində dövrünün eybəcərliklərini, yaramazlıqlarını yaratdığı tiplərin dili ilə tənqid atəşinə tutur və sanki onları ana vətəni Azərbaycandan təmizləyib zir-zibil kimi kənara tullamış və onlara qarşı qələmi ilə ömrünün axırına qədər mübarizə aparmışdır.

O, Azərbaycan ədəbiyyatına, söz sənətinə –siyasi uzaqgörənlik, zövq, məzmun, forma yenilikləri və insanı heyran edə bilən böyük fikirlər ifadə etmək ustalığı gətirmişdir. Onun yaratdığı «Molla Nəsrəddin» jurnalı «mollanəsrəddinçilər»in məktəbini kəşf edərək, onları mətbuat aləminə, döyüş meydanına inamla çıxartmışdır. Bu jurnalın köməyi ilə Sabirlərin, Əli Nəzmilərin qələminin, Əzim Əzimzadənin fırçasının gücü ilə bütün Şərq aləmində onlar böyük hörmət, rəğbət və məhəbbət qazanmışdır. Şərqin müxtəlif ölkələrində qoca «Molla Nəsrəddin»in neçə-neçə istedadlı davamçılarının və sənət dostlarının yetişdirilməsində müstəsna rol oynamışlar.

Sabirdən sonra onun ilk davamçısı olan şair Əli Nəzmi «Sijimqulu» və «Kefsiz» imzalarıyla gözəl satirik şerlər yazmışdır. Böyük ədibimiz Cəlil Məmmədquluzadə «Məşədi Sijimqulu» və «Kefsiz» sərlövhələri məqaləsində Əli Nəzmini «hünərvər şair adlandıraraq, Sabirin təsiri ilə oyanmış şairlərdən biri kimi qiymətləndirərək yazırdı: - Şerdə məharət və ləyaqətinə görə Sabirə yavuq gələn və ona əvəz olan birinci «Məşədi Sijimqulu», «Kefsiz» olubdur.

«Sabirin vəfatından sonra ikinci Sabirimiz, birincinin yerini boş qoymadı». Sonra müəllif Sabirin böyüklüyünü və orijinallığını xüsusi ilə nəzərə çatdırmaq üçün əlavə edir: - Mən elə güman edirəm ki, Sabir kimi hünərvər şairin qabağına çıxmaq o qədər də asan olmaya gərək... «Sabir heç kəsə yox, bəlkə Sijimqulu Sabirə oxşayıbdır və güman edirəm ki, belə bir təşbehə iftixar da edə bilər».

Cəlil Məmmədquluzadə özünün yaratdığı «Ölülər» əsərində, dövrünün eybəcərliklərini o cümlədən cəmiyyətin gülünc cəhətlərini, şüurlarda kök salmış mövhumat azarını lağa qoyaraq bu əsəri yaratmışdır. O, əsərin baş qəhrəmanı olan «Kefli İsgəndərin» dili ilə mövhumatı amansızcasına tənqid edərək avamların həyatına, taleyinə gülməli bir hadisə kimi deyil, faciə kimi baxırdı. Yəni o, avamlığı, cəhaləti təkcə bir yığın cahillər üçün deyil, ümumiyyətlə, cəmiyyət üçün, xalq, vətən üçün böyük faciə hesab edirdi.

Bu baxımdan Şahvələd Əliyevin «Sijimqulunun sərgüzəştləri» adlı kitabında yaratdığı Sijimqulu surəti Cəlil Məmmədquluzadənin «Kefli İsgəndərin»i xatırladır. Bu kitabdakı hekayələr toplusu keçmişimizlə, dünənimiz və bu günümüzlə bağlı maraqlı bir olaylar, hadisələr və hamımızı maraqlandıran həyat çatışmazlıqlarına qarşı barışmazlıq ideyaları ilə zəngin bir kitabdır. Şahvələd müəllim öz yaradıcılıq təxəyyülü ilə gah özü bir müəllif kimi, gah da hekayələrin qəhrəmanlarının dili ilə həyatdakı çatışmazlıqlara, yaramazlıqlara qarşı elə bir güzgü tutmuşdur ki, bu güzgüyə baxan hər kəs burada həyat olaylarını dolğunluğu ilə görə bilir və onlara qarşı öz insani münasibətlərini bildirmək zorunda qalır. Şahvələd müəllimin hekayələri ayrı-ayrılıqda hərəsi, bir yumoristik hekayə olsa da bütövlükdə bir povest, mən deyərdim, bir roman təsiri bağışlayır və oxucunu düşünməyə məcbur edir. Bu hekayələrin əsas baş qəhrəmanları Sijimqulu və bir neçə hekayəsində «Molla Nəsrəddin»dir. Sijimqulu «Kefli İsgəndəri» xatırlayaraq, gah bir çoxdanışan kimi, gah kefli bir insan kimi verilməklə zəmanənin, dövranın kefli İsgəndərinə çevrilərək öz başına gələn hadisələr, olaylar fonunda yaşadığımız həyatı bizlərə sanki bir daha tanıtdırır, kimliyimizi bizə izah etməyə çalışır.

Hekayələri oxuduqda «Kefli İsgəndərin» XXI əsrə gəldiyini, əsrimizdə olub-keçənləri bizə tutarınca izah etdiyini duyuruq. Neçə illərdən bəri torpaqlarımızın erməni tapdaqları altında qalmasına dözməyən Sijimqulu «Çoxdanışan» adlı hekayəsində bu olaylardan baş çıxara bilməməsini özünün ağılsız ağlıyanan ağıllı olaraq belə ifadə eləyir.

- Ə, bə qonşu, mən baş çıxara bilmirəm axı bu qalmaqal işlərdən. Deməyim odur ki, bu necə ola bilər, neçə illərdir ki, torpaqlarımız ermənilərin taptağı altındadır, biz də başımızı dik tutub gəzirik özümüz üçün, guya ki, bu torpaqlar heç bizim olmayıb. Ə, bə belə də iş olar?...

Sijimqulunun bu haqlı narazılığı, gileyi, əslində Şahvələd müəllimin bir müəllif, bir vətəndaş kimi narazılığıdır, haqlı gileyidir. Bütün başqa hekayələrində də biz müəllifin etiraz səsini eşidirik. Bu baxımdan «Köhnə tanışım» hekayəsində də çox maraqlı bir məsələyə toxunulur. Torpağı, vətəni sevmək, el yolunda hər cür əzaba qatlaşmaq gərəkliyi müəllifi narahat edən məsələdir və o, "köhnə tanışım" simasında qeyrətsiz, vətəninə, doğulub boya-başa çatdığı torpağına xəyanət edən insanları ifşa edir, lənətləyir.

Hekayənin sonu məntiqi bir nəticəylə bitir. Müəllif yazır:

«... Ancaq məni düşündürən o idi ki, görəsən mənim bu tanışım kimi insanlar niyə vətəninə, torpağına, xalqına dönük çıxırlar? Bir halda ki, bu torpaqda böyüyüb boya-başa çatmısansa, çörəyini yeyib, havasını udmusansa, ona xor baxmaq olmaz axı! Onu gözün kimi qorumalı, anan kimi sevməli və uğrunda hər an şəhid olmağa hazır olmalısan! Bu bizim müqəddəs borcumuzdur"

Çox mənalı və diqqətəlayiq sonluqdur. Bu gün bizlərin bu deyilənlərə əməl etməyimizə böyük ehtiyac var.

*davamı 38-ci səhifədə*

# Müasir dövrün «Kefli İsgəndər»i

Dediyimiz kimi, «Sijimqulunun sərgüzəştləri» kitabında gedən hekayələrin əsas qəhrəmanlarından biri də «Molla Nəsrəddin»dir. Molla Nəsrəddinin diliylə müəllif həyatımızda baş verənlərə qarşı öz münasibətini açıqlamış, inandırıcı deyimlərlə çox maraqlı şəkildə qələmə almışdır.

Bundan başqa kitabda gözəl hekayələrin və xoş təsirli povestdən əlavə müəllif öz fikirlərini, hisslərini şerin diliylə də deyə bilmişdir.

Bu baxımdan onun «Vətən oğlu», «Xalaoğlu», «Vəfasız gözəl», «Hardasan ana», «Deyim-Deməyim» şerləri maraqlıdır, oxunaqlıdır.

*Sən məni sevirdin*
*canından artıq,*
*O sevdiyin can da*
*zəlildir indi.*
*Oğlun can verməyir*
*gözləri açıq,*
*Gəl bağla gözünü,*
*sənsiz keçindi...*

və yaxud:

*Budurmu sevgiyə*
*verdiyin qiymət,*
*Budurmu eşqindən mənə*
*pay, gözəl?*
*Sevgidən yaranır sevənə*
*hörmət,*
*Sən niyə aldatdın məni,*
*ay gözəl!*

Bu deyimlər şirindir, yaddaqalandır. Şahvələd müəllim şair olmasa da, öz fikirlərini şerin diliylə deyə, oxucuya çatdıra bilmişdir.

Şahvələd müəllimin yaradıcılığında maraqlı bir cəhət də var ki, o da onun istedadlı rəssam olmasıdır. Belə ki, o, yumoristik hekayələrinə uyğun rəsmləri karikaturalarda çəkib əlavə etmişdir ki, bu rəsm əsərləri hekayələri daha maraqlı etmişdir.

Beləliklə, Şahvələd Əliyevin «Sijimqulunun sərgüzəştləri» kitabında yaratdığı yumoristik hekayələr və karikaturaları bir növ dahi sənətkarlarımız «mollanəsrəddinçilər»in davamçısı kimi səciyyələndirmək olar. Əsərdə verilən hekayə, povest, şerlər və karikaturalar bilavasitə gənc nəslin vətənpərvər ruhunda formalaşmasında, tərbiyələndirilməsində müstəsna rol oynayır.

Şahvələd müəllimə sənətin qaralı-ağlı yollarında dözüm, təpər və yeni-yeni sənət əsərləri yaratmaqda uğurlar arzulayırıq.

**İ.HÜSEYNOV**